**Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ PLENUMUNUN**

**Q Ə R A R I**

**27 dekabr 1996-cı il** **№ 5** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiyası bərabərlik, azadlıq, mülkiyyət, təhlükəsiz yaşamaq və sair insan hüquqlarının və azadlıqlarının müdafiə olunmasını bəyan edir.

Konstitusiya müddəalarının, eləcə də beynəlxalq hüquq normalarının şərtsiz qəbul edilməsi, Azərbaycan Respublikasının üzərinə insan hüquqlarının və azadlıqlarının, o cümlədən zərərçəkmiş şəxsin hüquqlarının təmin edilməsi sahəsində mühüm vəzifələr qoymuşdur.

Konstitusiyanın 68-ci maddəsinə əsasən cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərərçəkmiş şəxsin hüquqları qanunla qorunur.

Cinayətin mənəvi, fiziki və ya əmlak zərəri vurduğu şəxsin yəni zərərçəkmişin iştirakını tənzimləyən qanunlara ciddi əməl edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsinin mühüm şərtlərindən biridir.

Məhkəmə təcrübəsi göstərir ki, məhkəmələr bir qayda olaraq, zərərçəkmiş şəxsin hüquqlarının müdafiə olunmasını təmin edir. Bununla yanaşı, məhkəmələr bəzi hallarda qeyd olunan qanunların tətbiq edilməsində səhvlərə yol verir ki, bu da işlərin yenidən baxılmasına səbəb olur.

Zərərçəkmiş şəxsin Konstitusiya, qanunlar, beynəlxalq hüquq normalarından irəli gələn hüquqlarının cinayət mühakimə icraatında düzgün həyata keçirilməsi məqsədilə Plenum

**QƏRARA ALIR:**

**1.** Məhkəmələrin nəzərinə çatdırılsın ki, cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin hüquq və vəzifələrini tənzimləyən qanunlara ciddi və ardıcıl əməl olunması, işin düzgün həll edilməsinə və ədalətli qərar çıxarılmasına təminat verən şərtlərdən biridir.

Təhqiqatçı, müstəntiq, prokuror və hakim zərərçəkmiş şəxsin hüquqlarını izah etməklə, bu hüquqların tam həyata keçirilməsi üçün tədbirlər görməlidirlər.

**2.** Cinayət-Prosessual Məcəllənin 49-cu maddəsinə görə cinayətin mənəvi, fiziki və ya əmlak ziyanı vurduğu şəxs zərərçəkmiş şəxs hesab olunur.

Cinayətə hazırlıq, habelə cinayətə sui-qəsd işləri üzrə də mənəvi, fiziki və ya əmlak zərəri dəymiş şəxslər zərərçəkmiş şəxs kimi tanınmalıdırlar. Zərərçəkmiş şəxs kimi tanınma onun yaşından, fiziki və yaxud psixi vəziyyətindən asılı deyildir.

Hüquqi şəxslər zərərçəkmiş şəxs kimi tanına bilməzlər. Əmlak zərəri dəydiyi halda onlar mülki iddiaçı kimi tanınırlar.

**3.** Məhkəmələr mənəvi, fiziki və əmlak zərərinə dair məsələləri həll edərkən aşağıdakıları nəzərə almalıdırlar:

Mənəvi zərər dedikdə, şəxsin şərəf və ləyaqətinin alçaldılması, ona mənəvi sarsıntı yetirilməsi başa düşülməlidir.

Fiziki zərər dedikdə, şəxsin həyatına, səhhətinə, digər bədən toxunulmazlığına vurulmuş zərər başa düşülməlidir.

Əmlak zərəri dedikdə, pul vahidi ilə ifadə olunan maddi ziyan vurulması başa düşülməlidir.

Əmlak zərəri təkcə zərərçəkmiş şəxsə oğurluq, soyğunçuluq, quldurluq və başqa cinayət törədilməsi nəticəsində vurulmuş ziyanla məhdudlaşmır. O, həm də vətəndaşa fiziki zərərin vurulması ilə də əlaqədar ola bilər (məsələn, pozulmuş səhhətin sağalması, əmək qabiliyyəti itirildikdə ödənişlər zamanı və s.).

Əmlak zərərinin məbləği təhqiqatçı, müstəntiq, prokuror, hakim və məhkəmə tərəfindən müəyyən edilir. Zəruri hallarda zərəri dürüstləşdirmək üçün ekspertiza təyin edilə bilər.

**4.** Tədqiqatçı, müstəntiq, prokuror və hakimin qərarı və yaxud məhkəmənin qərardadı ilə zərərçəkmiş şəxsin prosessual hüquq və vəzifələri yaranır. Qərarda (qərardadda) zərərçəkmiş şəxsə hansı zərər dəyməsi göstərilməlidir. Bir neçə növ zərər dəydikdə bu hal qərarda (qərardadda) öz əksini tapmalıdır.

Əmlak zərəri dəyməsi haqqında zərərçəkmiş şəxs tələb irəli sürdükdə, o, işdə mülki iddiaçı kimi tanınmalıdır.

**5.** Cinayət-Prosessual Məcəllənin 50-ci maddəsinin 3-cü hissəsinə əsasən zərərçəkmiş şəxsin ölümü ilə nəticələnmiş cinayətlər haqqında işlər üzrə onun yaxın qohumları öz aralarında olan razılığa əsasən zərərçəkmiş şəxs kimi özlərindən birini təqdim edə bilərlər. Həlak olmuş şəxsin yaxın qohumlarından bir neçəsi onların zərərçəkmiş şəxs kimi tanınmasını tələb etdiyi hallarda həmin şəxslər zərərçəkmiş şəxs kimi tanına bilərlər.

Cinayət-Prosessual Məcəllənin 54-cü maddəsinin 2-ci hissəsində zərərçəkmiş şəxsin mənafeyinin nümayəndələri kimi işdə iştirak edə bilən yaxın qohumların siyahısı verilmişdir. Həmin siyahıda göstərilməyən qohumlar, habelə digər şəxslər, məsələn, qonşular, həlak olmuş şəxsin tanışları zərərçəkmiş şəxs kimi tanına bilməzlər.

**6.** Zərərçəkmiş şəxs yetkinlik yaşına çatmadıqda, onun fəaliyyət qabiliyyəti olmadıqda və yaxud fəaliyyət qabiliyyəti məhdud olduqda, Cinayət-Prosessual Məcəllənin 54-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulan şəxslərdən biri işdə onun qanuni nümayəndəsi kimi iştirak etməlidir. İşdə qanuni nümayəndənin iştirak etməsi eyni zamanda zərərçəkmiş şəxsin nümayəndəsi kimi müdafiəçinin iştirakına maneçilik törətmir.

**7.** Müdafiəçi və qanuni nümayəndə həm zərərçəkmiş şəxslə, həm də onun iştirakı olmadan, qanunda nəzərdə tutulan hallardan başqa (məsələn, Cinayət-Prosessual Məcəllənin 289-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulan üzrlü səbəb olmadan zərərçəkmiş şəxsin məhkəmə iclasına gəlməməsi) işdə iştirak edə bilər.

**8.** Müttəhimi məhkəməyə verərkən hakim və yaxud məhkəmə cinayət nəticəsində mənəvi, fiziki, əmlak zərəri dəymiş bütün şəxslərin zərərçəkmiş şəxs kimi tanınması məsələsini yoxlamalıdır. Onlardan biri əsassız olaraq zərərçəkmiş şəxs kimi tanınmadığı halda, hakim qərarı, məhkəmə isə qərardadı ilə həmin şəxsi zərərçəkmiş kimi tanımalı, müttəhimi məhkəməyə verdikdən sonra onu işin bütün materialları ilə tanış olmaq imkanı ilə təmin etməlidir. Zərərçəkmiş şəxsin hüquqları əsassız olaraq başqasına verildiyi hallarda, məhkəmə binagüzarlıq iclasında həmin şəxsi zərərçəkmiş kimi məhkəmədə iştirak etməkdən kənar edir və bu barədə qəbul olunan qərar haqqında ona məlumat verir. Əmlak zərəri dəyən hallarda zərərçəkmiş şəxsə mülki iddia vermək hüququ izah edilməli və onun təmin olunması üçün tədbir görülməlidir.

**9.** Yalnız zərərçəkmiş şəxsin şikayəti ilə başlanan cinayət işləri üzrə məhkəmələr əsassız cinayət işi başlamağın rədd edilməsinə yol verməməlidirlər. Zərərçəkmiş şəxsin

şikayəti ilə bərabər qarşılıqlı şikayət verildiyi halda, Cinayət-Prosessual Məcəllənin 255-ci maddəsinə əsasən hakim həmin şikayətləri bir icraatda baxılması üçün birləşdirir. Bu halda hər iki şikayətçi məhkəmə iclasında təkcə zərərçəkmiş şəxs kimi deyil, həm də müttəhim kimi çıxış etdiyi üçün məhkəmədə onların hər birinin qanunla müttəhimə və zərərçəkmiş şəxsə verilən bütün prosessual hüquqlardan istifadə etmələri təmin olunmalıdır.

Böhtan və təhqir işlərində vətəndaşın şərəf və ləyaqətinə toxunan yalan məlumatlar mətbuatda yayıldığı halda, məhkəmə təqsirkarın barəsində hökm ilə birlikdə zərərçəkmiş şəxsin haqqında gedən böhtan məlumatı mətbuatda təkzib etməsi barədə xüsusi qərardad çıxara bilər.

**10.** Materialların məhkəməyə qədər hazırlanmasının protokol forması qaydasında daxil olmuş materiallar üzrə hakim (məhkəmə) cinayət işi başlamaq və hüquq pozan şəxsi məhkəməyə vermək haqqında qərarda (qərardadda) cinayət nəticəsində mənəvi, fiziki və əmlak zərəri dəymiş şəxsin iş üzrə zərərçəkmiş şəxs kimi tanınmasını göstərməlidir.

Cinayət-Prosessual Məcəllənin 105-ci maddəsində qeyd olunan işlər üzrə də zərərçəkmiş şəxs həmin qayda ilə tanınmalıdır.

**11.** Zərərçəkmiş şəxsin məhkəmə iclasında iştirak etməsinə məhdudiyyət qoyulması yolverilməzdir.

Zərərçəkmiş şəxsin cinayət hadisəsinin baş vermə şəraiti və iştirakçıları haqqında mühüm əhəmiyyətli məlumatlar olduğu, onun ifadəsi işin mahiyyəti üzrə düzgün həll edilməsi üçün böyük əhəmiyyət kəsb etdiyi hallarda, məhkəmə Cinayət-Prosessual Məcəllənin 289-cu maddəsinə əsasən müttəhimin xahişi ilə işin baxılmasını təxirə salaraq, zərərçəkmiş şəxsin məhkəmə iclasına gəlməsini təmin edə bilər. Zərərçəkmiş şəxs üzrlü səbəb olmadan gəlmədikdə məhkəmə onu məcburi gətirməyə haqlıdır.

**12.** Konstitusiyanın 127-ci maddəsinə əsasən məhkəmələr işə baxarkən zərər çəkmiş şəxsin və ya onun ailə həyatının sirrini qorumaq zərurəti olduğu halda, işə qapalı iclasda baxmağa haqlıdır.

**13.** Məhkəmə iclasına sədrlik edən zərərçəkmiş şəxsə, onun nümayəndəsinə məhkəmə iclas protokolu ilə tanış olmaq hüquqlarını, ona qeydlər etmək, kassasiya şikayəti vermək qaydası və müddətini izah etməlidir.

**14.** Cinayət-Prosessual Məcəllənin 344-cü maddəsinin mənasına görə zərərçəkmiş şəxs üzrlü səbəbdən məhkəmə iclasında iştirak edə bilmədikdə, ona hökmün surəti verilməli və hökmdən şikayət vermək imkanı yaradılmalıdır.

Zərərçəkmiş şəxs kimi tanınmayan vətəndaşa zərər dəyməsi hökmlə müəyyən edildiyi hallarda, həmin şəxs kassasiya şikayəti verərsə, məhkəmə binagüzarlıq iclasında onu zərərçəkmiş şəxs kimi tanımaqla, onun kassasiya şikayətini işlə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərməlidir.

**15.** Cinayət işi kassasiya instansiyası məhkəməsinə daxil olduqda, zərərçəkmiş şəxsə iş üzrə verilmiş kassasiya protesti və kassasiya şikayətinə etiraz və qeydlərin vermə hüququnun izah edilməsi məsələsi yoxlanılmalıdır. Göstərilən hüquqların pozulması müəyyən edildikdə, yol verilən nöqsanların aradan qaldırılması üçün iş hökmü çıxarmış məhkəməyə qaytarılmalıdır. Kassasiya instansiyası məhkəməsində həmin nöqsanların aradan qaldırılması mümkün olduğu hallarda bunu özü etməlidir.

**16.** Kassasiya və nəzarət instansiyası məhkəmələri cinayət işlərinə baxarkən təhqiqat, ibtidai istintaq orqanları və birinci instansiya məhkəmələrinin zərərçəkmiş şəxsin cinayət mühakimə icraatında iştirakını tənzimləyən qanunlara əməl olunmasını yoxlamalıdırlar.

Cinayət-Prosessual Məcəllənin 361-ci maddəsinə görə zərərçəkmiş şəxsin hüquqlarının məhdudlaşdırılması işin hallarının məhkəmədə hərtərəfli araşdırılmasına, qanuni və əsasları hökm çıxarılmasına maneçilik törətdiyi hallarda iş yeni təhqiqat, ibtidai istintaq və ya məhkəmə baxışına qaytarılmalıdır.

**X.İ.HACIYEV**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**
**V.İ.NƏZƏROV**
**Plenumun katibi, Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin üzvü**